# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№388/5** **01 iyul 2026-cı il**

## Auditorlar Palatasının Şurası yanında Auditin hüquqi təminatı və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) üzrə komitənin tərkibində dəyişiklik edilməsi barədə

Auditorlar Palatası Şurasının "Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Komitələrin və Komissiyanın yeni strukturunun və tərkibinin təsdiq edilməsi barədə" 2026-cı il 5 fevral tarixli 385/4 nömrəli qərarı ilə təsdiq edilmiş Auditorlar Palatasının Şurası yanında Auditin hüquqi təminatı və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) üzrə komitənin sədri Ənvər Mətləb oğlu Aslanovun Azərbaycan Respublikası Auditorlar Palatasının strukturunda yeni yaradılmış Xüsusi Auditlər, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, Daxili Nəzarət və Forenzik Təhlillər idarəsinin rəisi vəzifəsinə təyin edilməsi ilə əlaqədar həmin komitənin təkribində dəyişiklik edilməsi məqsədilə Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının Şurası yanında Auditin hüquqi təminatı və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) üzrə komitənin sədr müavini "A Audit and Consulting" MMC-nin direktoru - auditor Rüfət Yaqub oğlu Əliyev həmin komitənin sədri vəzifəsinə təyin edilsin.
2. "AZFİNANCE AND CONSULTİNG" MMC-nin direktoru - auditor Elnur Şahin oğlu Kazımov həmin komitənin sədr müavini vəzifəsinə təyin edilsin.
3. Auditorlar Palatasının Şurası yanında Auditin hüquqi təminatı və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) üzrə komitəyə məsul şəxs Auditorlar Palatasının Xüsusi Auditlər, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, Daxili Nəzarət və Forenzik Təhlillər idarəsinin rəisi (Ə.Aslanov) təyin edilsin.
4. Auditin hüquqi təminatı və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) üzrə komitənin sədri Rüfət Əliyevə tapşırılsın ki, iki həftə müddətində komitənin Əsasnaməsinin və 2026-cı il üzrə iş planının layihələrini hazırlayıb təsdiq edilməsi üçün Palatanın rəhbərliyinə təqdim etsin.
5. Sədrin müşaviri F.Qarayevə və Auditin transformasiyası, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov, Z.Almazov) tapşırılsın ki, bir həftə müddətində bu qərarın mətninin və Komitənin üzvləri barədə yenilənmiş məlumatların Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsini təmin etsinlər.

**Şuranın sədri** **Vahid Novruzov**